PARADIGMA, No.1, 2026, səh.1-6
https://doi.org/10.30546/30015.2026.01.01.2021

# ALİ MƏKTƏBLƏRDƏ ƏDƏBİYYAT MÜƏLLİMLƏRİNİN İNNOVATİV TƏLİM BACARIQLARININ FORMALAŞDIRILMASI

**A.Q. Mirzəyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: aytacmirzeyeva222@gmail.com

**Xülasə.**İnnovativ təlim bacarıqlarının formalaşdırılması müasir pedaqoji sistemdə tədrisin keyfiyyətinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır. Rəqəmsal transformasiya, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi və tələbə yönümlü təhsil modelinin formalaşması ədəbiyyat müəllimindən yalnız məzmun biliklərinə deyil, həm də yaradıcı yanaşma, interaktiv metodlardan istifadə, kritik düşünmə və kommunikasiya bacarıqlarının stimullaşdırılması kimi yeni kompetensiyalar tələb edir.
Tədqiqat göstərir ki, innovativ təlim bacarıqları PBL (problem yönlü təlim), layihə əsaslı öyrənmə, multimodal mətn analizi, rəqəmsal platformalar (LMS, e-learning), virtual ədəbiyyat mühiti və müasir qiymətləndirmə alətləri vasitəsilə effektiv şəkildə inkişaf etdirilə bilər. Eyni zamanda, müəllim hazırlığı proqramlarında praktiki təlim, ssenari əsaslı dərs modelləri və reflektiv fəaliyyətlərin genişləndirilməsi bu bacarıqların davamlı inkişafına şərait yaradır.

**Açar sözlər:** İnnovasiya, təlim, pedaqogika, ədəbiyyat, kompetensiya, texnologiya, metodologiya, rəqəmsallaşma, analiz, kreativlik.

## Giriş

Ali məktəblərdə ədəbiyyat müəllimlərinin innovativ təlim bacarıqlarının formalaşdırılması müasir dövrün təhsil tələblərindən irəli gələn əsas istiqamətlərdən biri kimi çıxış edir. Qloballaşma, informasiya axınının sürətlənməsi və rəqəmsal transformasiya təhsil sisteminin bütün pillələrinə olduğu kimi, ali təhsil müəssisələrinə də yeni vəzifələr müəyyən edir. Xüsusilə humanitar fənlərin tədrisində – o cümlədən ədəbiyyat sahəsində – ənənəvi dərs modelləri tələbələrin dəyişən ehtiyaclarını tam şəkildə qarşılamır. Müasir tələbə auditoriyası informasiya əldə etmək, analiz etmək və öz fikirlərini ifadə etmək üçün daha çox interaktivliyə, texnoloji dəstəyə və yaradıcı mühitə ehtiyac duyur.

Bu kontekstdə innovativ təlim bacarıqları müəllimlər üçün məcburi kompetensiyaya çevrilir. Rəqəmsal cihazların, interaktiv platformaların, onlayn təlim resurslarının geniş tətbiqi ədəbiyyat dərslərinə yeni dinamizm gətirir və bədii mətnlərin təhlilini daha çoxşaxəli edir. Artıq təkcə mətnin oxunması və müəllim izahı ilə kifayətlənmək mümkün deyil; tələbə müasir tədris mühitində mətnləri vizuallaşdırma, müqayisəli təhlil aparma, elektron resurslardan istifadə etmə və yaradıcı təqdimatlarla mövzunu dərindən mənimsəmə imkanı əldə etməlidir. Bu isə birbaşa müəllimin innovativ bacarıqlara malik olmasını tələb edir [3, s.40].

### Təhsildə rəqəmsal transformasiya və yeni müəllim kompetensiyaları

Tələbələrin öyrənmə davranışlarında baş verən dəyişikliklər də müəllimlərin yeni pedaqoji yanaşmalar tətbiq etməsini zərurətə çevirir. Müasir tələbələr daha çox tədqiqat yönümlü öyrənməyə üstünlük verir, interaktiv iş formaları ilə daha yaxşı nəticə göstərir və müstəqil öyrənmə motivasiyası rəqəmsal vasitələr vasitəsilə daha asan inkişaf etdirilir. Bütün bunlar ədəbiyyat dərslərinin məzmununun yenilənməsini, tədrisin texnoloji alətlərlə zənginləşdirilməsini və müəllimin fasilitator rolunda çıxış etməsini aktuallaşdırır.

İnnovativ təlim bacarıqları dedikdə, müəllimin dərs prosesində yeni pedaqoji yanaşmaları tətbiq edə bilməsi, rəqəmsal resurslardan səmərəli istifadə etməsi, interaktiv metodları dərsə inteqrasiya etməsi və yaradıcı təfəkkürü təşviq etməsi nəzərdə tutulur. Ədəbiyyat fənni humanitar sahə kimi geniş interpretasiya imkanları yaradır və bu, müəllimdən həm mətn üzərində analitik yanaşma, həm də müasir texnoloji vasitələrin düzgün tətbiqi bacarığı tələb edir. Məsələn, elektron ədəbiyyat platformaları, rəqəmsal kitabxanalar, multimedialı təqdimatlar və onlayn müzakirə forumları tələbələrin mətnləri daha dərin təhlil etməsinə şərait yaradır.

Ədəbiyyat müəllimlərinin innovativ təlim bacarıqlarının formalaşdırılması üçün müasir təlim metodlarının mənimsənilməsi əsas şərtlərdəndir. Problemyönlü təlim, layihə əsaslı öyrənmə, debat və diskusiya metodları tələbələrdə tənqidi düşüncəni və müstəqil araşdırma bacarığını inkişaf etdirir. Bu metodlar ədəbiyyat dərslərində bədii mətnlərin strukturunu, ideya-məzmun xəttini və yazıçı üslubunu interaktiv şəkildə öyrənməyə imkan verir. Müəllim yalnız bilik ötürən deyil, həm də öyrənmə prosesini yönləndirən fasilitator kimi çıxış edir. Eyni zamanda innovativ təlim bacarıqlarının formalaşdırılması müəllimlərin davamlı peşəkar inkişafı ilə sıx bağlıdır. Ali məktəblərdə müəllimlərin müasir pedaqoji texnologiyalar üzrə təlimlərdə iştirak etməsi, seminar və treninqlərə cəlb olunması, beynəlxalq təcrübəni öyrənməsi vacibdir. Bu fəaliyyətlər müəllimlərin yeni metodik yanaşmaları mənimsəməsini və dərsdə tətbiq edə bilməsini təmin edir [1,s.84].

İnnovativ təlim bacarıqları dedikdə müəllimin müasir texnologiyalardan, interaktiv metodlardan və tələbəyönümlü yanaşmalardan istifadə edə bilməsi nəzərdə tutulur. Bu, ənənəvi izah–mühazirə modelindən fərqli olaraq tələbənin dərs prosesində aktiv iştirakını təmin edir və ədəbiyyat dərslərini daha maraqlı, daha canlı və daha təsirli edir. Məsələn, müəllim elektron dərs vasitələrindən istifadə etməklə dərs materialını təkcə mətn şəklində deyil, vizual şəkildə təqdim edə bilər. Ədəbiyyat əsərinin süjet xəttini interaktiv diaqramlarla göstərmək, obrazların xarakterini cədvəllər və sxemlərlə izah etmək tələbələrin mətni daha tez və daha aydın qavramasına kömək edir.

**Ədəbiyyat dərslərində multimodal resursların tətbiqi**

Ədəbiyyat dərslərində video materiallardan istifadə tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə artıran innovativ üsullardan biridir. Video resurslar mətndə təsvir edilən hadisələri və obrazları vizual olaraq nümayiş etdirdiyi üçün tələbələrin dərsi daha dərindən və emosional şəkildə qavramasına şərait yaradır. Təkcə mətn oxumaqla əldə edilən təsəvvür çox zaman abstrakt qalır, lakin video vasitəsilə müəllim həmin dövrün mühiti, insanlararası münasibətlər, sosial problemlər və ideyaları tələbələrə daha real şəkildə göstərə bilir. Məsələn, Cəlil Məmmədquluzadənin "Ölülər" əsərini tədris edərkən müəllim dramın ideyasını sadəcə izah etməklə kifayətlənməyərək, əsərin motivlərini açan qısa sənədli film və ya tamaşa fraqmenti nümayiş etdirə bilər. Bu zaman tələbələr təkcə dialoqları deyil, həm də obrazların davranışlarını, ictimai mühitin konfliktlərini, o dövrün sosial-siyasi ab-havasını canlı şəkildə görürlər. Bu vizual təqdimat tələbələrdə əsərdəki satiranın mahiyyətini, cəmiyyətin geriliyi ilə bağlı tənqidi fikirləri daha dolğun başa düşməyə kömək edir.

Həmin dövrün ictimai-siyasi mühitini əks etdirən video parçalar dərsin təsir gücünü daha da artırır. Məsələn, XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış, maarifçilik ideyaları, dini fanatizmin yayılması, cəmiyyətdə mövcud olan sosial ədalətsizlik kimi məsələlər haqqında hazırlanmış qısa sənədli kadrlara baxmaq tələbələrin mətni yeni rakursdan qavramasına şərait yaradır. Bu zaman tələbələr "Ölülər" əsərinin yalnız bədii mətn olmadığını, həm də müəyyən tarixi hadisələri tənqid edən sosial-siyasi manifest olduğunu daha aydın görürlər.

Video materiallar həm də müzakirə mühiti yaratmağa imkan verir. Məsələn, film fraqmentinə baxdıqdan sonra müəllim tələbələrdən bu suallara cavab istəyə bilər:

– Obrazların davranışı sizə hansı mesajı verdi?

– Filmdəki mühit əsərdə təsvir edilənlərlə nə dərəcədə üst-üstə düşür?

– Həmin dövrün sosial problemləri bu gün də aktualdırmı?

Belə suallar tələbələrin həm dərsi analiz etməsinə, həm tənqidi düşünməsinə, həm də öz mövqeyini ifadə etməsinə şərait yaradır. Bütün bunlar göstərir ki, video materiallardan istifadə ədəbiyyat dərslərini həm daha emosional, həm daha vizual, həm də daha müasir edir. Tələbələr mətni yalnız oxumur, həm də yaşayır, hiss edir və onun yaranma şəraitini daha dərindən dərk edirlər.

Bütün bu innovativ üsullar ədəbiyyat dərslərində mətni yalnız ənənəvi şəkildə təhlil etməyə deyil, həm də tələbələrin daha fəal, yaradıcı və analitik şəkildə iştirak etməsinə imkan yaradır. Ənənəvi dərs modelində müəllim əsas məlumat verən tərəf, tələbə isə dinləyən situasiyada olur. Lakin innovativ təlim üsulları bu münasibəti dəyişərək tələbəni dərsin mərkəzinə gətirir. Bu zaman tələbə təkcə müəllimin dediklərini qəbul etmir, həm də öz

fikirlərini formalaşdırır, suallar verir, müqayisələr aparır və dərsin məzmununa öz intellektual töhfəsini verir [7,s.72].

Bu üsullar tələbələrdə tənqidi düşünmə bacarıqlarının inkişafına da mühüm təsir göstərir. Məsələn, əsərin konfliktini, obrazların davranış motivlərini və yazıçının mesajını qiymətləndirən tələbə artıq mətni yalnız təsvir etməklə kifayətlənmir, həm də onun ideya yükünü təhlil edir. Bu, gələcəkdə tələbənin analitik düşünmə qabiliyyətini müxtəlif sahələrdə tətbiq etməsinə imkan yaradır.

İnnovativ yanaşmalar tələbələrin müstəqil nəticə çıxarma bacarığını da gücləndirir. Məsələn, qrup müzakirəsi zamanı tələbələr müxtəlif fikirlər səsləndirir və hər biri öz arqumentini əsaslandırmağa çalışır. Bu proses tələbəni daha dərindən düşünməyə, sübutlara əsaslanan nəticələr formalaşdırmağa vadar edir. Həmçinin, müasir dərs metodları tələbələr arasında fikir mübadiləsini canlandırır. İnteraktiv suallar, qrup işləri, debatlar, onlayn sorğular və “Padlet”, “Mentimeter”, “Kahoot” kimi platformalardan istifadə tələbələrin dərs prosesində daha aktiv iştirakına şərait yaradır. Beləliklə, tələbələr bir-birinin fikrinə qiymət verir, müqayisələr aparır, oxşar və fərqli yanaşmaları müəyyənləşdirirlər. Bu, onların kommunikasiya və sosial əməkdaşlıq bacarıqlarını da inkişaf etdirir [6,s.25].

Məsələn, müəllim dərsin sonunda tələbələrə onlayn sorğu vasitəsilə “Əsərin əsas problemi nədir?” sualını təqdim edə bilər. Tələbələr dərhal telefonlarından cavablarını daxil edir və nəticələr ekran üzərində real vaxtda görünür. Ekranda cavabların müxtəlifliyi tələbələrin mətni fərqli aspektlərdən qavradığını göstərir və müəllim həmin cavablar əsasında qısa, yönləndirici müzakirə təşkil edir. Bəziləri əsərdə sosial ədalətsizliyi, digərləri mənəvi dəyərlərin tənəzzülünü, bir qismi isə obrazların psixoloji çatışmazlıqlarını əsas problem kimi göstərə bilər. Bu zaman tələbələr başqalarının baxışlarını da görərək öz fikirlərini zənginləşdirirlər. Belə yanaşmalar nəticəsində tələbələr əsərlə bağlı öz fərdi baxış bucağını formalaşdırır və ədəbiyyata daha şəxsi, düşünülmüş münasibət göstərirlər. Bu, innovativ təlim üsullarının ən mühüm nailiyyətlərindən biridir [4,s.23].

Audio materiallardan istifadə də innovativ təlim üsullarının mühüm istiqamətlərindən biridir. Səsli materiallar ədəbiyyat dərslərini yalnız vizual deyil, həm də eşitmə əsaslı öyrənmə ilə zənginləşdirir və tələbələrdə poetik mətnə qarşı daha dərin hiss və təsəvvür yaradır. Şeir və bədii parçaların professional səsləndirilməsi tələbələrin poetik dili, ritmi, intonasiyanı və emosional vurğunu daha dəqiq qavramasına kömək edir. Çünki şeirin səsinin tonu, pauzalar, ritmik vurğular onun mənasını tamamlaya və gücləndirə bilir. Səməd Vurğunun “Azərbaycan” şeirinin aktyor ifasında dinlədilməsi tələbələrdə yalnız məzmunu anlamaq deyil, həm də mətnin daxilindəki vətənpərvərlik duyğusunu, qürur hissini, şairin emosional aləmini hiss etmək

imkanı yaradır. Peşəkar aktyorun səs tembri, vurğu tərzi, səsin yüksəlməsi və enməsi şeirin bədii təsir gücünü çoxaldır. Tələbələr bu zaman şeiri sadəcə oxumur, onu eşidir, duyur və yaşayır [2,s.89].

Audio materialların istifadəsi şeirdəki musikalılığı, ritmik quruluşu, harmoniyanı, ahəngdarlığı tələbələrə daha real təqdim edir. Bu isə onların poetik dili anlama bacarığını inkişaf etdirir. Müəllim audio səsləndirmədən sonra tələbələrdən şeirdə hansı misraların daha təsirli eşidildiyini, hansı emosional keçidlərin onları daha çox düşündürdüyünü və şairin hansı hissləri ifadə etdiyini soruşaraq qısa müzakirə təşkil edə bilər.

Audio materiallar ədəbiyyat dərslərini monotonluqdan xilas edir, tələbələrdə diqqəti və marağı artırır. Məsələn, müəllim Səməd Vurğunun şeirini əvvəlcə audio şəkildə dinlədib, daha sonra tələbələrdən eyni şeiri öz intonasiyaları ilə səsləndirmələrini istəyə bilər. Bu, həm yaradıcılığı, həm nitq mədəniyyətini, həm də poetik hissiyatı inkişaf etdirən interaktiv fəaliyyət növünə çevrilir.

**Nəticə**

Ali məktəblərdə ədəbiyyat müəllimlərinin innovativ təlim bacarıqlarına yiyələnməsi zəruri bir prosesdir. Bu, həm təhsil mühitinin modernləşməsi, həm də tələbələrin ədəbiyyata marağının və fəallığının artırılması baxımından böyük əhəmiyyət daşıyır. Müasir dövrdə ədəbiyyat dərsi yalnız mətn oxumaq deyil, həm də yaradıcılıq, tənqidi düşünmə, kommunikasiya və analitik təfəkkür bacarıqlarının inkişaf etdirilməsi deməkdir.

## Ədəbiyyat siyahısı

1. Hacıyev A.C. (2003). Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Təhsil.
2. Həsənli B.A., Hüseynoğlu S., Səfərova Ə., Quliyev Ə.Q. (2012). Ədəbiyyat. V sinif: Müəllim üçün metodik vəsait. Bakı: Bakı Nəşriyyatı.
3. Əhmədova S. (2021). Pedaqoji innovasiyaların təhsildə rolu və tətbiq sahələri (Avtoreferat). Bakı.
4. Cho H., & digərləri. (2021). A study on key components of problem-based learning. EJPBL.
5. Li J. (2024). Determining the role of innovative teaching practices in academic motivation and sustainable learning. BMC Psychology.
6. Ekpok H.A. (2021). Innovative teaching methods and pedagogy. JASSD.
7. Markušic J. (2019). Problem-based teaching of literature. Journal of Education and Training Studies.

# EFFECTIVE ORGANIZATION OF THE TEACHER'S FACILITATOR ROLE

**A.G. Mirzayeva**
Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan

**Summary.** Formation of innovative teaching skills is of strategic importance in terms of improving the quality of teaching in the modern pedagogical system. Digital transformation, widespread application of information and communication technologies and the formation of a student-oriented education model require literature teachers not only to have content knowledge, but also to have new competencies such as a creative approach, the use of interactive methods, and the stimulation of critical thinking and communication skills.

The study shows that innovative teaching skills can be effectively developed through PBL (problem-based learning), project-based learning, multimodal text analysis, digital platforms (LMS, e-learning), virtual literature environments and modern assessment tools. At the same time, the expansion of practical training, scenario-based lesson models and reflective activities in teacher training programs creates conditions for the continuous development of these skills.

**Keywords:** Innovation, training, pedagogy, literature, competence, technology, methodology, digitalization, analysis, creativity.